01 (1359) 16-22 yanvar 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## BİRGƏ ƏMƏKDAŞLIĞIMIZ DAHA DA MÖHKƏMLƏNİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.

Kayrat Sarıbay ölkəmizin sədrlik prosesinin uğurla davam etdirildiyini deyən qonaq bütövlükdə Azərbaycanın çoxtərəfli diplomatiyada zəngin təcrübəsinin olduğunu qeyd edib. Kayrat Sarıbay bu xüsusda ölkəmizin BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və digər beynəlxalq təşkilatlarda uğurlu sədrliyini vurğuladı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyin də bu müstəvidə aparıldığını deyib. O, Azərbaycan tərəfindən konseptual sənədin təqdim olunduğu və bu sənəddə təşkilatın gələcək inkişafı ilə bağlı, həmçinin ölkələr arasında əməkdaşlığın və etimadın gücləndirilməsi üçün geniş sahəni əhatə edən təkliflərin əksini tapdığını bildirib.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin təşkilata sədrliyinin uğurla davam etdirildiyini deyərək, üzv dövlətlər arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, təşkilatın institusional inkişafı və təşkilat çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərin bundan sonra da göstəriləcəyini qeyd edib.

Dövlətimizin başçısı Azərbaycan tərəfinin bu təşkilata sədrliyə çox məsuliyyətlə yanaşdığını bildirərək, ölkəmizin öz növbəsində bu formatın daha da möhkəmlənməsi işinə töhfəsini verəcəyinə əmin olduğunu deyib.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCANIN BƏRPA OLUNAN ENERJİ SAHƏSİNƏ QOYDUĞU İNVESTİSİYALAR DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ NÜMUNƏSİDİR



Yanvarın 13-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti 2024-cü ildə Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərlərini, bu səfərlər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırlayıb.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin COP29-da iştirakını bir daha yüksək qiymətləndirən dövlətimizin başçısı qeyd edib ki, bu mühüm beynəlxalq tədbirin uğurla başa çatdırılmasında Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlığı və bu ölkənin konsepsiyası da öz rolunu oynayıb.

Dövlət başçıları münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayıblar. Hazırda ölkələrimizdə sabitliyin və əmin-amanlığın hökm sürdüyü qeyd olunub.

Siyasi münasibətlərimizin mükəmməl səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndiyini qeyd edib, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpa olunan enerji sahəsinə qoyduğu investisiyaların da dostluğumuzun və tərəfdaşlığımızın nümunəsi olduğunu vurğulayıb. Həmçinin ölkələrimizin ənənəvi enerji sahəsində yaxından əməkdaşlıq etdiyi qeyd olunub.

Söhbət zamanı ikitərəfli, regional, qlobal, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ƏBU-DABİ DAYANIQLILIQ HƏFTƏSİNDƏ İŞTİRAK EDİB




Yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Tədbirdə çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ölkəsinin dayanıqlılıq sahəsində həyata keçirdiyi siyasət və layihələr barədə məlumat verib, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin mühüm beynəlxalq platforma kimi rolunun artdığını qeyd edib. Sonra Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi olub.

Daha sonra Zayed Dayanıqlılıq Mükafatının qalibləri ilə xatirə fotosu çəkdirilib.

* * *

Qeyd edək ki, 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi ötən illər ərzində dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya prinsiplərini əsas istiqamətlər kimi müəyyənləşdirən Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxslər iştirak edib.

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



Yanvarın 14-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. Əvvəlcə Komissiyanın yanvarın 8-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik məsələsinə baxılıb. Mərkəzi Seçki Komissiyası 68 saylı Sabirabad–Şirvan, 72 saylı Cəlilabad kənd, 86 saylı Ağcabədi və 118 saylı Ağdam-Xocalı seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik edilməsinə qərar verib.

İclasda daha sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə müəyyən olunmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər media mənsublarının və maraqlı subyektin də iştirakı ilə Komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

## “Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm”

Bu sözləri Serbiya Prezidenti Aleksandar Vuçiç yerli televiziya kanalındakı çıxışı zamanı deyib.

*“Bəzi ölkələr bir müddət qaz almayacaq, lakin Azərbaycan Prezidenti, böyük dostumuz İlham Əliyev qərar verdi, Serbiyaya hər zaman qaz nəql olunacaq. Bu, ölkəmiz və xalqımız üçün böyük və mühüm qərardır. Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm. Mən onu nə vaxt desə, Belqradda gözləyirəm. Çünki biz qarışıq komitələrə malik olmalıyıq və*



*əməkdaşlığımızı daha çox müzakirə etməliyik. Bizim sosial həyatın bütün sahələrində strateji əlaqələrimiz var və bu münasibətlər getdikcə daha da inkişaf edir. Bu, hər zaman belə dostlara arxalana biləcəyimizin yalnız bir göstəricisidir. Belə dostluqlar qurmalısınız”*, - deyə Aleksandar Vuçiç vurğulayıb.

Xatırladaq ki, Serbiya Prezidenti ötən gün sosial media hesabındakı paylaşımda Azərbaycandan Serbiyaya təbii qaz nəqlinin dayandırılmayacağını deyib, Azərbaycana və Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

## Moskva Rusiya-Azərbaycan münasibətlərini yüksək qiymətləndirir

Moskva Rusiya ilə Azərbaycan arasında münasibətləri yüksək qiymətləndirir.

Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov RF diplomatiyasının 2024-cü ildə fəaliyyətinin yekunlarına dair keçirdiyi mətbuat konfransında bildirib.

Rusiyalı nazir deyib: “Rusiya-Azərbaycan münasibətlərinə gəldikdə, mən onları çox yüksək qiymətləndirirəm, onlar etimada əsaslanır. Prezidentlər mütəmadi olaraq görüşür, hər hansı qapalı mövzu yoxdur. Prezident Putin və Prezident Əliyev tərəfindən hökumətlərin yeni qarşılıqlı fayda layihələri stimullaşdırmasına dair iş də qurulub. Bu, həm Şimal-Cənub dəhlizinə, həm də Qafqazda və onun ətrafında digər nəqliyyat layihələrinə aiddir. Bu, həmçinin Xəzərə, xüsusən onun dayazlaşmasına da şamil olunur”.

Rusiya XİN-in rəhbəri qeyd edib ki, tərəflər beynəlxalq arenada əməkdaşlıq edirlər, təhlükəsizlik, terrorizmlə, mütəşəkkil cinayətkarlıqla mübarizə sahələrində imkanların möhkəmləndirilməsi üzrə Silahlı Qüvvələr, xüsusi xidmət orqanları arasında təmaslar var və praktik addımlar atılır. O vurğulayıb: *“Həmkarım, dostum xarici işlər naziri ilə çox sıx əlaqə saxlayırıq”*.



## “Qazaxıstan və Azərbaycanla imzalanan saziş “yaşıl” enerjinin Avropaya ixracına şərait yaradacaq”

“Bu yaxınlarda COP29 çərçivəsində Azərbaycan və Qazaxıstan arasında imzalanmış çoxtərəfli saziş “yaşıl” enerjinin Avropaya ixracı üçün şərait yaradacaq”.



Bunu Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Birləşmiş Ərəb Əmirliyində keçirilən Əbu-Dabi Dayanıqlı İnkişaf Həftəsi (ADSW) zirvə toplantısında etdiyi çıxışda bildirib.

*“Enerji sahəsindəki qarşılıqlı əlaqələr yolu ilə Böyük ipək yolunun bərpası üçün ilk addımlar atılıb”*, - özbəkistanlı lider bildirib.

Dövlət başçısı həm də onu qeyd edib ki, müvafiq olaraq Dubay və Bakıda keçirilən, COP28 və COP29 konfranslarında, həmçinin digər iki beynəlxalq forumda Özbəkistan qlobal iqlim dəyişikliyinin neqativ fəsadlarına qarşı mübarizə ilə bağlı bir sıra təşəbbüslər irəli sürüb.

Xatırladaq ki, BƏƏ paytaxtında Əbu-Dabi Dayanıqlı İnkişaf Həftəsi keçirilir. Beynəlxalq tədbirin yanvarın 18-ə kimi davam edəcəyi bildirilir.

## Azərbaycan Pakistanda ticarət marşrutlarının inkişafına həsr olunmuş müzakirələrdə iştirak edib

Strateji Araşdırmalar İnstitutunun (ISSRA) Pakistanın Milli Logistika Korporasiyası (NLC) ilə birgə təşkil etdiyi “Regional ticarət və əlaqələr: Yeni perspektivlərin və imkanların açılması” mövzusunda beynəlxalq konfransda Azərbaycan da təmsil olunub.




AZƏRTAC-ın Pakistan mətbuatına istinadla verdiyi xəbərə görə, konfransda Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) aparıcı məsləhətçisi Nağı Əhmədov çıxış ediblər. Natiqlər Pakistan ilə Azərbaycan arasında möhkəm qardaşlıq əlaqələrini vurğulayıb, qarşılıqlı əməkdaşlığa toxunublar. Onlar, həmçinin Azərbaycan, Türkiyə və Pakistan arasında iqtisadi tərəfdaşlığın uğurla inkişaf etdiyini qeyd ediblər.

Konfransda Türkmənistan, İran, Qırğızıstan, Tacikistan, Özbəkistan səfirləri, Pakistan analitikləri və xarici ekspertlər də çıxış ediblər. İştirakçılar Mərkəzi və Cənubi Asiya ölkələri arasında ticari-iqtisadi əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Pakistanın neft və su ehtiyatları naziri Musadiq Məsud Malik region ölkələrinin həyati əhəmiyyətli enerji resurslarına çıxışını təmin etmək üçün regional əlaqələri gücləndirməyə çağırıb. Onun sözlərinə görə, boru kəməri, nəqliyyat və enerji dəhlizləri layihələrinin həyata keçirilməsi regionda enerji təhlükəsizliyini gücləndirəcək.

## “Dövlətlə sahibkar arasında etimad mühitinin möhkəmləndirilməsi investisiya qoyuluşlarını artırır”

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

O bildirib ki, Dünya İqtisadi Forumunun hökumət texnologiyalarının qlobal ictimai təsiri ilə bağlı hesabatında Azərbaycanda dövlət-özəl tərəfdaşlığı layihələri, iqtisadiyyatın rəqəmsallaşması üzrə əldə edilmiş uğurlar xüsusi vurğulanıb: “*İqtisadi səmərəlilik və sosial fayda; Strateji biznes imkanları; Dövlət xidmətlərinin həyata keçirilməsində özəl sektorun iştirakı. Dövlət-özəl tərəfdaşlığının inkişafı ölkəmizdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində effektiv nəticələr verir*”.




## Culfa KES-də istehsal edilən enerji istehsalının həcmi açıqlanıb

Trend-in sorğusuna cavab olaraq Naxçıvan Dövlət Energetika Xidmətindən bildirilib ki, bu rəqəm ötən il 477 min kVt-saat olub.

Qeyd edək ki, ərazidə külək enerjisinin inkişafı istiqamətində görüləcək işlərin davamı olaraq yeni qurulan 132/110/35/10 kV Culfa yarımstansiyası yaxınlığında əkinə yararsız ərazidə ayrılmış sahədə ümumi gücü 0,3 meqavat olan Culfa Külək Elektrik Stansiyası tikilmişdir. Bu ərazidə küləyin orta sürəti 6 m/san-dan artıqdır ki, bu da külək enerjisi üçün əlverişli texniki-iqtisadi potensialın olmasını göstərir. Culfa Külək Elektrik Stansiyası 31 oktyabr 2022-ci ildə istismara verilib. Stansiyada il ərzində 666,62 min kilovat-saat elektrik enerjisi istehsal edilməsi nəzərdə tutulub.

## Ağdam Sənaye Parkının rezidenti məhsul ixracına başlayıb

Azərbaycanda ilk dəfə olaraq müxtəlif çeşiddə qoruyucu ayaqqabı və poliuretan çəkmələrin ixracı həyata keçirilib.




Bu barədə Trend-ə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) məlumat verilib.

Qeyd olunub ki, İZİA-nın idarəçiliyində olan Ağdam Sənaye Parkının daha bir rezidenti məhsul ixracına başlayıb.

Bildirilib ki, müxtəlif çeşiddə qoruyucu ayaqqabı və poliuretan çəkmələrin istehsalı üzrə ixtisaslaşmış “BAFCO İnvest” MMC tərəfindən Rusiya, Qazaxıstan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərinə məhsul ixrac edilib.

Hazırda “BAFCO İnvest” MMC Avropa ölkələrinə məhsul ixracı istiqamətində danışıqlar aparır.

Qeyd edək ki, Ağdam Sənaye Parkının 2,5 hektar ərazisində yerləşən və Almaniyanın tanınmış Desma markasının avadanlıqları ilə təchiz olunan fabrikin illik istehsal gücü 510 000 cüt ayaqqabı təşkil edir.

## 2024-cü ildə 4600-dən çox ailə ipoteka krediti vasitəsilə mənzil sahibi olub

Ötən ildə İpoteka və Kredit Zəmanət Fondunun (Fond) vəsaiti hesabına müvəkkil banklar tərəfindən 439,8 milyon manat həcmində 4685 ipoteka krediti, o cümlədən, 357,7 milyon manat məbləğində 3609 adi ipoteka krediti və 82,1 milyon manat məbləğində 1076 güzəştli ipoteka krediti verilib.

Fonddan Trend-ə verilən məlumata görə, ümumilikdə, 2006-2024-cü illərdə Fondun vəsaiti hesabına verilən ipoteka kreditlərinin həcmi 3,31 milyard manatı keçib ki, bu da 52530-dan çox ailənin öz mənzil şəraitini yaxşılaşdırmasına imkan verib.

Qeyd edilib ki, Fondun vəsaiti hesabına verilən ipoteka kreditlərindən faydalananların 67%-ni gənclər və gənc ailələr təşkil edib, kreditlərin 22%-ə yaxını isə regionların payına düşüb.

Dövr ərzində ipoteka bazarında müvəkkil banklar arasında rəqabət mühitinin gücləndirilməsi təmin edilib, ipoteka kreditləri üzrə maksimal faiz dərəcəsinin illik 8% müəyyən olunmasına baxmayaraq, bir sıra banklar tərəfindən daha aşağı faiz dərəcələri ilə (6-7%) ipoteka kreditlərinin verilməsi davam etdirilib. Nəticədə, 2024-cü ildə adi ipoteka kreditləri üzrə orta illik faiz dərəcəsi 7,4% təşkil edib.

## “Şahdəniz” və AÇG üzrə mənfəət vergisi 2 milyard manata yaxın olacaq

2025-ci ildə Hasilatın Pay Bölgüsü Sazişləri (HPBS) çərçivəsində “Şahdəniz” və “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarını işlədən neft-qaz şirkətlərindən dövlət büdcəsinə 1,95 milyard manat mənfəət vergisinin daxil olacağı gözlənilir.

AÇG layihəsinin səhmdarlarının 2025-ci ildə Azərbaycanın büdcəsinə neftin orta qiymətinin 70 ABŞ dolları olmaqla 450 milyon manat mənfəət vergisi ödəyəcəyi gözlənilir. Şahdəniz layihəsi üzrə fəaliyyət göstərən şirkətlərin mənfəət vergisi ödənişləri isə 1,5 milyard manat proqnozlaşdırılıb. Bu proqnoz qazın 1000 kubmetri üçün orta qiymətinin 242 ABŞ dolları olmaqla müəyyən edilib.

2024-cü ilin sonuna Şahdəniz və AÇG layihəsi üzrə mənfəət vergisi ödəmələri müvafiq olaraq 1,93 milyard manat və 650 milyon manat olmaqla ümumilikdə 2,58 milyard manat təşkil edib.

## Naxçıvanda vergi daxilolmaları artıb

Bu barədə Trend-ə Dövlət Vergi Xidmətindən məlumat verilib.

Bildirilib ki, 2024-cü ildə Naxçıvan MR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 226,6 milyon manatdan çox vergi daxil olub ki, bu da 2023-cü ilə nisbətən 37,6 faiz və ya 61,9 milyon manat çoxdur.

Qeyd olunub ki, ötən il Naxçıvanda vergi daxilolmaları üzrə proqnoz 130,2 faiz icra edilib.

## İranın Azərbaycana qeyri-neft məhsul ixracı artıb

Cari İran ilinin 9 ayı (20 mart -20 dekabr 2024) ərzində İranın Azərbaycana qeyri-neft məhsul ixracı ötən ilin analoji dövrü ilə müqayisədə (21 mart - 21 dekabr 2023) müqayisədə dəyər baxımından 24,8%, çəki baxımından 14,2% artıb.

Bu barədə Trend İranın Gömrük Administrasiyasının statistikasına istinadən məlumat verib.

Statistikada bildirilir ki, cari İran ilinin 9 ayı (20 mart - 20 dekabr 2024) ərzində İran Azərbaycana 512 milyon dollar dəyərində təxminən 650 min ton qeyri-neft məhsulları ixrac edib.

Ötən İran ilinin 9 ayı (21 mart - 21 dekabr 2023) ərzində İranın Azərbaycana qeyri-neft məhsul ixracı 410 milyon dollardan çox dəyərdə 569 min ton təşkil edib. Statistikada deyilir ki, İran Azərbaycana, əsasən, kənd təsərrüfatı və ərzaq məhsulları, sənaye məhsulları, neft-kimya və kimyəvi məhsullar ixrac edib.

Əlavə edək ki, İranın Gömrük Administrasiyasının statistikasına əsasən, cari İran ilinin 9 ay ərzində İranın qeyri-neft məhsul ixracı 43,1 milyard dollar dəyərində 116 milyon ton təşkil edib. 9 ayda İranın qeyri-neft məhsul ixracı ötən ilin analoji dövrü ilə müqayisədə dəyər baxımından 18%, çəki baxımından 13,8% artıb.



## Ötən il istehlakçılara qaytarılan ƏDV-nin məbləği açıqlanıb

Ötən il ərzində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 176 milyon 360,4 min manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.

Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, “ƏDV geri al” layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçılar tərəfindən ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam etdirilir. 2024-cü il ərzində nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan həcmi 26 milyon 417,7 min manatdan çox olub.

## Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 13 faizdən çox artıb

Ötən il ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 15 milyard 808 milyon manatdan artıq vergi daxil olub ki, bu da proqnozdan 538 milyon manat çoxdur.

Dövlət Vergi Xidmətindən bildirilib ki, qeyri-neft-qaz sektorunda daxilolmalar 11 milyard 27,4 milyon manata yaxın təşkil edib, büdcəyə proqnozdan əlavə 337,3 milyon manatdan çox vəsait daxil olub. 2023-cü illə müqayisədə bu sektordan vergi daxilolmaları 1,3 milyard manat və ya 13,6 faiz artıb.

Ödənilən vergilərin 69,8 faizi qeyri-neft-qaz sektorunun, 30,2 faizi isə neft-qaz sektorunun payına düşüb.

## Aqrar sığorta ödənişləri 46%-ə yaxın artıb

“2024-cü ildə Aqrar Sığorta Fondu 6,4 milyon manat sığorta ödənişi həyata keçirib”.

Bunu Fondun İdarə Heyətinin sədr müavini Ləman Alıyeva-Məmişova bildirib.

Onun sözlərinə görə, bu, 2023-cü illə müqayisədə 45,5% çoxdur. “*Kəskin artım iqlim dəyişiklikləri fonunda baş verib. Bu ilin ilk 10 günündə isə 500 min manata yaxın sığorta ödənişi həyata keçirilib*”, - deyə sədr müavini qeyd edib.

Bundan başqa, Fond rəsmisi deyib ki, ötən il bağlanmış sığorta müqavilələrinin sayında 11%, fermerlərin sayında isə 38%-ə yaxın artım olub: “*Bu da fermerlərin aqrar sığortaya marağının getdikcə artığını göstərir*”.

# О геноциде белорусского народа в годы Великой Отечественной войны (материал Национальной Академии наук Беларуси)

**(начало в предыдущем номере)**

На территории Беларуси карательные операции стали проводиться в первые военные месяцы и включали расстрелы, массовые издевательства, сожжение населённых пунктов. Уже с 25 по 31 июня 1941 г. подразделения 322-го батальона осуществили специальную карательную операцию в районе Беловежской пущи. Всего за неделю было выселено 6446 человек из 34 деревень. При проведении карательной акции было расстреляно более 50 человек.

Наиболее масштабной и кровавой карательной операцией на территории Беларуси в начале войны была акция «Припятские болота», охватившая ряд районов Брестской, Пинской, Полесской и Минской областей. Проводилась под предлогом борьбы с партизанами. За период проведения этой операции с 19 июля до 31 августа 1941 г. карателями из 162й и 252-й пехотных дивизий, 1-й кавалерийской бригады СС было сожжено 18 деревень и уничтожено 13 788 человек.

15.08. 1941 г. карательный отряд поджёг центр райцентра Туров, а затем подтянув дополнительные силы 700–800 человек совершил поджёг Турова в пяти местах и одновременно сжёг четыре деревни.

Значительно активизировались каратели осенью 1941 г., что было связано с поступлением на оккупированную территорию распоряжений нацистской верхушки и германского военного командования с требованием удушить «коммунистическое повстанческое движение» и конкретных указаний, как «утихомирить» гражданское население. Гитлеровское руководство требовало проводить беспощадные устрашающие акции против гражданского населения, вывозить мирных жителей на работы в Германию, захватывать продовольственные ресурсы и другие материальные ценности.

В сентябре – ноябре 1941 г. вылазки карательных подразделений произошли на территории Пинской, Витебской, Гомельской, Минской, Могилёвской и Полесской областей. По неполным данным в этих операциях было убито более 7 тысяч человек. оккупантами.

С весны 1942 г. оккупанты перешли к проведению крупных карательных операций против быстро расширяющегося движения сопротивления и к массовому уничтожению гражданского населения. Для проведения первой крупной карательной операции «Бамберг» (20.03– 04.04. 1942) в пяти районах Минской и Полесской областей были привлечены три пехотных полка, один артиллерийский полк, два отдельных полицейских батальона, кавалерийский эскадрон, бомбардировочная эскадрилья. В ходе акции планировалось разгромить партизан ОктябрскоЛюбанской зоны и «утихомирить» местное население.

Каратели совершили страшное злодеяние в отношении мирного населения. За период с 1 по 5 апреля 1942 г. палачи сожгли более 3600 жилых домов, расстреляли, повесили и сожгли около 5600 жителей. Наиболее пострадала деревня Хвойня Петриковского района, где были убиты 1419 человек.

Уже в июне 1942 г. руководство группы армий «Центр» разработало план 16 крупных карательных операций в своём тыловом районе, в соответствии с которым оккупационный режим провёл в июне – августе 1942 г. более 30 крупных карательных ударов.

Летом 1942 г. карательные операции были развёрнуты на территории Витебской, Могилёвской, Гомельской, Минской, Полесской, Барановичской областей. Основной удар наносился по партизанам и мирному населению в тыловом районе группы армий «Центр». Главной целью оккупантов был разгром партизанских зон на территории Россонского, Освейского, Чечерского, Оршанского, Сенненского, Лепельского, Бегомльского и других районов.

При проведении карательной операции «Гриф» во второй половине августа 1942 г. оккупанты бесчинствовали на территории Оршанского и Богушевского районов. В течение нескольких дней они убили и замучили 800 женщин, стариков и детей, полностью сожгли деревню Морозовку со всеми жителями, 600 человек угнали на каторгу в Германию. Особенно зверствовали подразделения 59-го армейского корпуса. Ещё при подходе к району операции каратели захватили 310 человек и 81 расстреляли.

Одной из самых масштабных и кровавых карательных операций лета – начала осени 1942 г. была акция под кодовым названием «Болотная лихорадка», охватившая 13 районов Витебской, Минской и Брестской областей. От карательных сил требовалось действовать беспощадно, а все деревни, находящиеся в болотистых и лесных районах проведения операции, подлежали уничтожению. В рамках этой экспедиции были проведены семь акций. В результате кровавых действий оккупантов погибли 10013 мирных жителей, 1217 было вывезено на каторгу в Германию. Жестокую расправу произвели каратели в деревне Бобровичи, где уничтожили




676 человек

Таким образом, с лета 1942 г. гитлеровское командование развернуло на территории Беларуси массовый террор. Масштабные карательные операции стали проводится практически на всей территории республики. Несмотря на то, что вермахт вёл активную наступательную кампанию на южном крыле советско-германского фронта, гитлеровское командование систематически направляло дополнительные силы для развёртывания карательных экспедиций.

За сентябрь – ноябрь 1942 г. оккупанты нанесли 19 крупных ударов по партизанам и населению. Сжигались деревни более чем в 30 районах Беларуси, в том числе в Бешенковичском, Сенненском, Быховском, Сиротинском, Горецком, Толочинском, Витебском. По неполным подсчётам за осень 1942 г. было сожжено более 100 деревень, сёл и посёлков.

В 1943 г. захватчики перешли к проведению крупномасштабных карательных операций с использованием моторизованных формирований, танков и авиации и провели 60 крупных карательных экспедиций: в Витебской области (январь – март, май – июнь, октябрь – ноябрь, декабрь); в Вилейской (октябрь); Гомельской (октябрь); Минской (май – июнь, август); Могилёвской (апрель, август, октябрь); Полесской (январь, июль – август); Барановичской (август), Пинской (июль – август), Брестской (сентябрь – октябрь).

Основной удар противника был направлен на Витебщину, где в течение 3-х месяцев проводились четыре крупные карательные операции, в ходе которых нацисты замучили и сожгли заживо более 15 000 человек, разгромили и сожгли по разным оценкам более 500 населённых пунктов. Только в Полоцком районе в течение января 1943 г. каратели сожгли 21 деревню.

В ходе операция «Шаровая молния» фашисты прочесали 169 деревень, захватили 3583 человека. Женщин и детей, пытавшихся спрятаться в землянках, уничтожали гранатами. Захваченных в лесу мирных жителей загоняли в уцелевшие постройки и заживо сжигали. Жертвами карательной операции «Заяц-беляк» по неполным данным стали 877 жителей. Несколько деревень были уничтожены вместе с жителями.

Одна из самых кровавых карательных операций 1943 г. – экспедиция «Коттбус». За май – июнь полностью или частично сожжена 221 деревня, уничтожено 4056 жилых домов, расстреляно и заживо сожжено более 10 000 мирных жителей Минской и Витебской областей. Так, в сожжённой деревне Горелый Луг погибло 576 человек. Кроме того, 3051 человек были угнаны оккупантами на принудительные работы в Германию.

Тяжелейшие испытания легли на плечи мирных жителей Ивенецко-Налибокской партизанской зоны в июле – августе 1943 г., когда оккупанты проводили карательную операцию под кодовым названием «Герман». В районе операции каратели убили 4380 советских граждан и 20 994 захватили для угона в Германию, сжигали деревни вместе с жителями.

С осенне-зимнего периода 1943/1944 г., когда началось освобождение Беларуси, проведение тактики «выжженной земли» приняло наиболее широкие масштабы. К проведению карательных акций стали широко привлекаться армейские подразделения, в которых создавались специальные команды поджигателей (факельщиков). Эти спецгруппы должны были при отступлении германских войск осуществлять полное опустошение населённых пунктов.

Осенью – зимой 1943 г. германские оккупанты развернули несколько крупных карательных операций в различных регионах Беларуси.

В октябре – начале ноября 1943 г. против гомельских и полесских партизанских формирований были последовательно проведены три масштабные акции с участием фронтовых частей. В ходе операций нацисты расстреляли сотни мирных жителей и сожгли несколько деревень. На Витебщине в ходе карательной операции «Генрих» оккупанты нанесли массированные удары по деревням Россонского района, в результате чего 20 из них были сожжены. В акции «Отто» каратели расстреляли около 2 тысяч человек и сожгли более 10 деревень Освейского и Дриссенского районов.

В течение первой половины 1944 г. оккупационная политика геноцида и «выжженной земли» на территории Беларуси достигла своей наивысшей точки. Чудовищные злодеяния совершили нацисты в сотнях населённых пунктов Беларуси. Так, в деревне Ала Паричского района 14 января 1944 г. карательный отряд согнал в дома из семи окрестных населённых пунктов. Гитлеровцы расстреляли и сожгли 1758 человек, в том числе 950 детей и 508 женщин.

Основные силы карателей в весной – летом период 1944 г. были брошены на ликвидацию партизанских зон, уничтожение и угон в Германию мирных жителей, разрушение населённых пунктов. Так, в карательной операции «Праздник весны» (17.04–5.05. 1944) нацисты в районе Полоцко-Лепельской партизанской зоны убили 7011 человек и сожгли несколько деревень.

Массовое разрушение и уничтожение населённых пунктов Беларуси в 1944 г. было тщательно спланировано и осуществлялась в соответствии с указаниями гитлеровского командования.

На протяжении трёх лет оккупации нацисты совершили на территории Беларуси чудовищные злодеяния. Согласно выводам Чрезвычайной Государственной комиссии по установлению и расследованию преступлений немецко-фашистских захватчиков и их соучастников на временно оккупированной советской территории, БССР потеряла за годы войны более половины своего национального богатства. Прямой ущерб, причинённый германскими захватчиками народному хозяйству Беларуси составил 75 млрд. руб. (в ценах 1941 г.) Почти 3 млн. человек (около 34 процентов довоенного населения) были лишены жилья. Самыми тяжёлыми из всех были людские потери.

По данным СНК БССР из Беларуси в Германию было угнано 399 474 человека. За годы войны республика потеряла каждого третьего своего жителя.

20 ноября 1945 г. высшие государственные и военные деятели фашистской Германии предстали перед Международным Военным трибуналом в Нюрнберге. Значительное место в обвинении фашизма занимали материалы и документы о преступлениях, совершённых фашистами на территории Беларуси.

# Назван объем добычи нефти и газа в Азербайджане за прошлый год

По оперативным данным за январь-декабрь 2024 год, в Азербайджане добыто 29,1 миллиона тонн нефти (вместе с конденсатом). Об этом сообщает в среду Trend со ссылкой на министерство энергетики Азербайджана.

Согласно информации, из этого объема на долю месторождения «Азери-Чираг-Гюнешли» пришлось 16,8 миллиона тонн, на «Шахдениз» - 4,2 миллиона тонн (конденсат), а на «Абшерон» - 0,6 миллиона тонн (конденсат). Добыча нефти (включая конденсат) SOCAR составила 7,5 миллиона тонн.

# Назван объем экспорта газа из Азербайджана в Европу



Азербайджан в январе-декабре 2024 года на 5,8 процента нарастил экспорт газа по сравнению с аналогичным периодом 2023 года до 25,2 миллиарда кубометров газа. Как сообщает в среду Trend, об этом говорится в публикации министра энергетики Парвиза Шахбазова в социальной сети X. «В Европу было экспортировано 12,9 миллиарда кубометров, в Турцию - 9,9 миллиарда кубометров, из них 5,6 миллиарда кубометров - по TANAP, и в Грузию - 2,4 миллиарда кубометров», - говорится в публикации.

Отметим, что Турция и Грузия получают газ из Азербайджана с 2007 года, Европа - с декабря 2020 года.

# Обсуждено развитие деловых связей между местными предпринимателями и регионами Турции

В «Бакинском доме малого и среднего бизнеса» состоялась встреча находящейся с визитом в Азербайджане делегации бизнесменов во главе с генеральным директором турецкой Ассоциации промышленников и бизнесменов Коньи (KONSIAD) Кемалем Челиком с местными предпринимателями.

В Агентстве по развитию малого и среднего бизнеса (KOBİA), выступая на мероприятии, председатель правления Агентства Орхан Мамедов и генеральный директор KONSIAD Кемаль Челик поделились своими мыслями о возможностях сотрудничества между бизнесменами, совместных проектах, поддержке, которую могут оказать обе организации. На встрече была представлена информация о мерах поддержки, льготах, предоставляемых предпринимательству в нашей стране, в том числе об услугах KOBİA, координации местных предпринимателей с иностранными бизнесменами.

# Подписанное соглашение создаст условия для экспорта "зеленой" энергии в Европу

Недавно подписанное с Казахстаном и Азербайджаном многостороннее соглашение в рамках COP29 создаст условия для экспорта "зеленой" энергии в Европу. Об этом сказал Президент Узбекистана Шавкат Мирзиёев в ходе своего выступления на саммите



Неделя устойчивого развития Абу-Даби (ADSW), проходящем в Объединенных Арабских Эмиратах.

**"Сделаны первые шаги для возрождения Великого шелкового пути посредством энергетической взаимосвязанности"**, - сказал он.

# Türkiyə günəş və külək enerjisi istehsalını dörd dəfə artıracaq



Türkiyə ötən 10 illik dövr ərzində bərpa olunan enerji istehsalını iki dəfə artırıb. Qarşıdakı 10 il ərzində isə həm günəş, həm də külək enerjisi istehsalını dörd dəfə artırmağı planlaşdırır. Bu barədə Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum açıqlayıb.

Türkiyənin Aralıq dənizi hövzəsində yerləşdiyini və regionun həssaslığı səbəbindən iqlim böhranından çox təsirləndiyini vurğulayan nazir ölkəsinin tarixi bir dövrdən keçdiyini, bir yandan regional tarazlıqda güclü bir liderlik sərgilədiyini, digər tərəfdən isə insanlığı maraqlandıran qlobal problemlərə qarşı fəaliyyət göstərdiyini deyib. Nazir sənayenin milli gəlirdəki payının gündən-günə daha da artdığını və bu artımın davamlılığının Türkiyənin gələcəyi üçün çox vacib olduğunu bildirib.

# 2024-cü il Türkiyədə bərpaolunan enerji sahəsində rekord ili olub

Ötən il Türkiyənin bərpaolunan enerji sektoru üçün rekord il olub. Ölkədə günəş və külək elektrik stansiyalarının quraşdırılmış gücü 6,2 min MVt artıb.
Bu barədə Türkiyənin enerji və təbii ehtiyatlar naziri Alparslan Bayraktar məlumat verib.
"Ümidvaram ki, 2025-ci il bərpaolunan enerji mənbələrinə arxalanan enerji şirkətləri üçün daha da uğurlu bir il olacaq", - deyən Bayraktar, həmçinin Prezident Rəcəb Tayyib Ərdoğanın açıqladığı hədəflərə, xüsusən də Türkiyənin günəş və külək enerjisinin ümumi tutumunu gətirəcəyinə əminliyini ifadə edib. O əlavə edib ki, külək elektrik stansiyalarının gücü 2035-ci ilə qədər 120 min MVta çatacaq.



Bayraktar, həmçinin 2028-ci ilə qədər Türkiyədə dəniz külək stansiyalarının tikintisinə başlamaq planlarını bölüşüb.
Türkiyəli nazir daha sonra hökumətin cari il üçün neft-qaz sektoru üzrə hədəflərini açıqlayıb. O qeyd edib: "Artıq bu il Qara dənizdəki ən böyük yerli yataq olan "Sakarya"da qaz hasilatını sutkada 30 milyon kubmetrə, Şırnakın Qabar dağı ərazisindəki neft yatağında isə gündəlik 100 min barelə çatdırmağı planlaşdırırıq".
Hökumətin nüvə enerjisi sahəsində planlarına toxunan Bayraktar qeyd edib ki, Türkiyə 2028-ci ilə qədər Mersində "Akkuyu" AES-in bütün reaktorlarını işə salmağı, həmçinin Sinop və Trakyada iki yeni AES layihələri üzərində işə başlamağı planlaşdırır.

# Çində rekord sayda avtomobil istehsal olunub

Dünyanın ən böyük avtomobil bazarı olan Çində ötən il 31,282 milyon ədəd avtomobil istehsal olunub.
Ötənilki istehsal 2023-cü illə müqayisədə 3,7 faiz çox olmaqla yanaşı, həm də Çin tarixində yeni rekorddur.
2024-cü ildə Çində avtomobil satışı 4,5 faiz çoxalaraq, 31,436 milyon ədədə, ixracı isə 19,3 faiz artaraq 5,859 milyona çatıb. Çinin avtomobil sənayesinin 2024-cü il üçün gözləntiləri və ümumi satış, habelə elektromobil və hibrid avtomobil istehsalı, satışı və ixracının proqnozları üstələdiyi açıqlanıb.
Hesabat dövründə Çində elektromobillər və hibrid avtomobillər istehsalı 12 milyondan çox, pərakəndə satışı isə 11 milyona yaxın olub. İstehsal və satış təxminən 35 faiz artıb.
Ölkədə ekoloji təmiz avtomobil satışı ilk dəfə ümumi satışın 40 faizini təşkil edib.
ABŞ, Avropa İttifaqı daxil olmaqla bəzi dövlətlərin Çin istehsalı olan elektromobil və hibrid avtomobillərə əlavə gömrük rüsumları tətbiq etməyə başlamasına baxmayaraq, hesabat ilində Çindən xaricə bu növ avtomobil ixracı 24,3 faiz artaraq 1,29 milyon ədədə çatıb.



# Avropa anbarlarında qaz ehtiyatları 65 faizdən aşağı düşüb

Avropanın yeraltı anbarlardakı qaz ehtiyatlarının səviyyəsi 65 faizdən aşağı düşüb.
"Gas Infrastructure Europe" assosiasiyasının məlumatına görə, isitmə mövsümünün başladığı oktyabrın 29-dan bəri anbarlardan qaz çıxarılması əvvəlki beş ilin orta göstəricisindən 29 faiz çox artaraq 36 milyard kubmetrə çatıb, sutkalıq çıxarılan qazın həcmi isə ilk dəfə olaraq 900 milyon kubmetrə yaxınlaşıb. Bununla belə, yeraltı anbarlarda qaz ehtiyatları tarix ərzində dördüncü ən yüksək səviyyədədir və 72,1 milyard kubmetr (64,98 faiz) təşkil edir. Avropa birjasında isə min kubmetr qazın qiyməti təxminən 500 dollar ətrafında dəyişir.



# Yaponiyada beş il ərzində 70 milyondan çox insan koronavirusa yoluxub

Yaponiyada ilk təsdiqlənmiş COVID-19 hadisəsindən beş il ötür.



Statistikaya görə, ölkədə 70 milyondan çox insan bu virusa yoluxub. AZƏRTAC Kyodo agentliyinə istinadla xəbər verir ki, koronavirusdan ümumi ölüm sayı 130 mindir. 2022-ci ildə COVID-19-un "omikron" variantı pik həddə çatdıqdan sonra ölkədə illik ölüm halları azalıb, lakin bu nəticə qripdən ölüm sayından xeyli yüksək olaraq qalır. Virus yay və qış aylarında mövsümi olaraq yayılmağa davam edir.
Qeyd edək ki, Yaponiyada koronavirusdan ölənlərin sayı bəzi inkişaf etmiş ölkələrlə müqayisədə daha azdır.

# Bir sıra xəstəliklərin müalicəsində fiziki aktivlik dərmanla eyni, bəzi vaxtlar isə daha güclü effekt göstərir

*Fiziki aktivlik ürək-damar xəstəlikləri, xərçəng və şəkərli diabet, skolioz, lordoz və digər qeyri-infeksion xəstəliklərin profilaktikası üçün vacib əhəmiyyətə malikdir. Fiziki aktivliyin əhəmiyyəti və fiziki passivliyin sağlamlığa zərərli təsirləri barədə suallarımızı Mərkəzi Gömrük Hospitalının Fizioterapiya şöbəsinin rəisi, fizioterapevt-reabilitoloq Səidə Kərimova cavablandırıb.*

**- Səidə xanım, fiziki aktivlik dedikdə, hansı fiziki məşğələlər nəzərdə tutulur? Orta intensiv fiziki aktivlik hansıdır?**

- Fiziki aktivlik gündə ən azı 30 dəqiqə, həftədə 5 gün orta intensivlikdə idmanın olmasıdır. Uşaqlar və yeniyetmələr üçün bu rəqəm fərqlidir - gündə 60 dəqiqə.
Orta intensiv fiziki aktivlik isə standart rahat vəziyyətdən 3 dəfə artıq enerji tələb edən aktivlikdir. Məsələn, orta templə yürüş, velosiped sürmə, tennis, üzgüçülük və s. Məncə, yürüş aktiv qalmaq üçün ən sadə və əlçatan bir variantdır.

**- Fiziki aktivliyin insan sağlamlığı üçün nə kimi müsbət təsirləri var? Fiziki aktiv olmaqla hansı xəstəliklərin qarşısını almaq mümkündür?**

- Fiziki aktivlik ürək-damar, diabet və digər xəstəliklərin profilaktikasında və kompleks müalicəsində vacib rol oynayır. Fiziki aktivlik çəki kontrolu, sümüklərin və əzələlərin möhkəm olması üçün çox vacibdir. Tədqiqatlara əsasən bir sıra xəstəliklərin müalicəsində fiziki aktivlik dərmanla eyni, bəzi vaxtlar isə daha güclü effekt göstərir.
***Aktivliyin orqanizmə müsbət təsiri elmlə sübüt olunmuşdur. Bu təsirlər arasında aşağıdakıları göstərmək olar:***
*· Artıq çəkini kontrol altına salır;*
*· Qlükozanı (şəkəri) və insulin balansını tənzimləyir;*
*· Ürəyin koronar damarlarında qan axarını artırır;*
*· Trombların yaranması riskini azaldır;*
*· Qan təzyiqini tənzimləyir;*
*· Qanda lipid profili yaxşılaşdırır - "yaxşı" yağların lipoproteidlərin səviyyəsini artırır, "pis" yağların səviyyəsini azaldır.*



Bunlarla yanaşı, fiziki aktivlik insanda depressiya, stress və gərginliyi azaldır və ümumi əhvalı yaxşılaşdırır.

**- Səidə həkim, bəs fiziki passivliyin insan orqanizmi üçün hansı zərərləri var?**

- Fiziki passivlik müasir dövrdə ən böyük problemlər sırasındadır. Araşdırmalara görə, fiziki passivlik və hipodinamiya ümumi ölüm riski faktorları arasında 4-cü yerdədir. Fiziki passivlik ürək-damar, diabet və xərçəng kimi xəstəliklərin gedişatını ağırlaşdırır.
13-15 yaşlı yeniyetmələr arasında da vəziyyət ürəkaçan deyil. Onların 80%-i gündəlik minimal 60 dəqiqəlik aktivlik rejiminə riayət etmirlər .
Fiziki passivlik barədə danışanda oturaq rejimi də qeyd etmək lazımdır. XX əsrdə oturaq rejimin ziyanını hətta siqaret çəkmənin ziyanı ilə bərabərləşdirirdilər. "Oturmaq yeni variant siqaret çəkməkdir" (sitting is a new smoking) ifadəsi bir müddət trendə çevrilmişdi.

**- İnsanların fiziki passivliyinin əsas səbəbləri hansılardır?**

- XXI əsrdə insanların çoxu vaxtını kompüter qarşısında və nəqliyyatda oturaq vəziyyətdə keçirir. Bizim bədənimiz hərəkət üçün hesablanıb. Müasir texnologiyalar və ofis işi şəraiti isə bizi hipodinamik həyat tərzinə meyilləndirir. Bu barədə çox maraqlı rəqəmlər var - böyüklər orta hesabla sutka vaxtının 90%-ni qapalı məkanlarda keçirir. Gün ərzində təxminən 9 saat oturaq vəziyyətdə oluruq. Oturaq rejimin bizim onurğamızın sağlamlığına, əzələ, skelet strukturlarına və digər sistemlərə mənfi təsiri haqqında sübut olunmuş araşdırmalar mövcuddur. Belə həyat tərzimiz bir sıra xəstəliklərin yaranmasına şərait yaradır.

**- Orta və ya ağır fiziki aktivlik fəaliyyəti zamanı dayaq-hərəkət aparatının travmaya məruz qalmaması üçün nələri tövsiyə edərdiniz?**

- İlk və ən vacib qayda - hansısa idman və hərəkət zamanı ağrı hiss edirsinizsə, onu dərhal dayandırın. Ağrı hərəkətinizin düzgün olmaması, ya da bədəninizin bu hərəkətə hazır olmaması barədə xəbərdarlıq edir. Hər bir idmandan əvvəl isinmə mərhələsini unutmayın, hərəkətin düzgün texnikasını öyrənin, gücünüzü düzgün qiymətləndirin. Fiziki aktivliyə uyğun qidalanın, bol su için və dincəlin. Bunlar idmandan sonra əzələlərin bərpasına kömək edəcək.

**- Ev şəraitində fiziki aktiv olmaq üçün hansı məşğələlər edilə bilər?**

- Gündəlik idman proqramınıza gərmələri, balans üçün hərəkətləri, ümumi bədənin sağlamlığına müsbət təsir edən, tez-tez müşahidə olunan bel və boyun ağrılarında istifadə olunan idman hərəkətlərini əlavə etmək məsləhətdir. Bu idmanları siz Mərkəzi Gömrük Hospitalının internet saytında "Düz qamət - sağlam həyat" rubrikasından öyrənə bilərsiniz. Linki təqdim edirəm. https://customshospital.az/hekim-mesleheti-duz-qamet/

**- Səidə həkim, maraqlı müsahibəyə görə təşəkkür edirik.**



**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyasının şöbə müdiri Mübariz Məmmədliyə atası
**MALİK MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə
**ŞƏMSƏDDİN XANBABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov
**ŞƏMSƏDDİN XANBABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyasının şöbə müdiri Mübariz Məmmədliyə atası
**MALİK MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Arif Hüseynov Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyasının şöbə müdiri Mübariz Məmmədliyə atası
**MALİK MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**